# Laura

*hekayə*





Hektor Huf Munro (SAKİ)

- Sən hələ ölmürsən, elədir? - Amanda soruşdu.

- Həkim deyib ki, çərşənbə axşamına qədər yaşayacam, - Laura dedi.

- Bu gün isə şənbə günüdür, məsələ ciddidir, lap az qalıb, - Amanda dərindən nəfəs alıb dedi.

- Mənimçün bu gün sadəcə şənbə günüdür, başqa heç nə fikirləşmirəm, - Laura dedi.

- Ölüm həmişə ciddi məsələdir, - Amanda dedi.

- Mən heç vaxt deməmişəm ki, öləcəm. Şübəsiz, mən daha Laura olmağa son qoyacam, ancaq başqa bir şeyə çevriləcəm. Güman ki, mən ya heyvana, ya da başqa bir şeyə dönəcəm. Bir bax, adam yaşadığı həyatda yaxşı insan olmayanda öləndən sonra ruhu daha pis bir orqanizmə köçür. Belə götürsək, mən həyatda heç də yaxşı insan olmamışam. Mən şərəfsiz, ləyaqətsiz, kinli, intiqamçı olmuşam. Bəzi hadisələr belə olmağıma sanki möhür vurub.

- Yox, düz demirsən, - Amanda tələsik dedi.

- Dediyimə etiraz edirsənsə, onda məni dinlə, - Laura dedi. - Eqbertə qarşı etdiklərim özü bir faktdır. Sən ona ərə getmisən, bu fərqli bir şeydir, sən onu sevməyə, sədaqətli olmağa and içmisən. Mən isə yox.

- Heç bilmirəm, Eqbertin nəyi pisdir, - Amanda ona etiraz etdi.

- Ah, səhv mənim tərəfimdən olub, - Laura səmimiyyətlə boynuna aldı. - O gün mən fermadan kolli küçüklərini çıxarıb gəzməyə aparanda o çox hirsləndi.

- O küçüklər onun çil-çil cücələrinin arxasına düşüb, kürt yatan iki toyuğu da yuvasından qovub. Bundan başqa, gülləklərini tapdalayıb. Sən axı bilirsən, o toyuq-cücələrini, bağını nə qədər sevir.

- Hər halda, o bütün günü deyinməli deyildi. Mən bu barədə onunla söhbət etmək istəyəndə “Gəl bu barədə danışmayaq” deməli, deyildi. Buna görə də ondan qisas almaq fikri beynimə gəldi, - Laura belə deyib istehzayla güldü, hiss olunurdu ki, etdiyi hərəkətə görə heç də peşman deyil. - O küçük məsələsindən sonra növbəti günü mən bütün toyuq-cücəni onun gül ləklərinin içinə saldım.

- Necə ürəyin gəldi belə etməyə? - Amanda həyəcanla dedi.

- Çox asanca etdim bunu - Laura dedi. - Hətta iki toyuq kürt yatmışdı, ancaq mən fikrimdə qətiydim, onları da qovub gül ləkinə saldım.

- Biz isə elə bilirdik ki, bunu hansısa heyvan edib.

- Bax, görürsən, - Laura sözünə davam etdi. - Mən ona görə də belə güman edirəm ki, öləndən sonra ruhum daha pis bir orqanizmə köçəcək. Mən hər hansı heyvana dönə bilərəm. Digər tərəfdən, mən həyatda çox da pis olmamışam, ona görə də belə hesab edirəm ki, mən daha gözəl, sevimli heyvana dönə bilərəm. Məsələn, susamuruna.

- Mən səni susamuru kimi təsəvvür edə bilmirəm, - Amanda dedi.

- Hmm.. Amma heç inanmıram ki, sən məni mələk kimi təsəvvür edərsən, - Laura dedi.

Amanda susdu, Laura düz deyirdi, Amanda onu mələk kimi təsəvvür edə bilmirdi.

- Şəxsən mən fikirləşirəm ki, o biri həyatım daha yaxşı olacaq, daha çox həzz alacam, - Laura sözünə davam etdi. - İl boyu qızıl balıq yeyəcəm, forelləri tutmaq asan olacaq. Yoxsa saatlarla onların sudan tullanmasını gözləməli olmayacam.

- Susamurlarını tutan itləri də yadına sal, - Amanda onun sözünü kəsdi. - İtlərin onları tutması. Nəhayət, ölüm haqda narahat olmaq necə də dəhşətlidir!

- Hər halda şənbə günündən çərşənbə axşamı gününədək ölümü anbaan gözləməkdən pis olmaz. Susamuru kimi öləndən sonra yenə də başqa bir şeyə dönəcəm. Əgər yaxşı bir susammuru olsam, bəlkə lap insan formasında yenidən zühur edərəm. Tutaq ki, qəhvəyi, çılpaq, balaca bir Nubiyalı oğlana dönərəm.

- Kaş sən ciddi bir söz deyəydin, - Amanda ah çəkib dedi. - Əgər sən, doğrudan da, çərşənbə günü axşamınadək yaşayacaqsansa gərək ciddi olasan hər sözündə.

Faktiki olaraq, Laura bazar ertəsi günündə öldü.

- Çox kədərlidir, - Amanda Lauranın ögey əmisi cənab Lulvorth gileyləndi. - Mən indi heç kimlə qolf oynamağa, balıq tutmağa gedə bilmirəm. Hər yan çöl güllərinə bürünüb, onları seyr etməyə kiminlə gedim?

- Laura həmişə qəribə olub, - cənab Lulvorth dedi. - O Goodvud festivalı vaxtı doğulub və uşaqlara nifrət edən səfir də həmin evdə olub.

- Onun çox axmaq fikirləri vardı. - Amanda dedi. - Bilmirsən, onun ailəsində heç kim dəli olmayıb?

- Dəli? Yox! Heç vaxt eşitməmişəm. Onun atası Qərbi Kinsinqtonda yaşayır, o normaldır.

- Laura deyirdi ki, öləndən sonra susamuruna dönəcək, - Amanda dedi.

- Hətta Kinsinqtonda da belə ideyalarla yaşayanlara tez-tez rast gəlmək olur, - cənab Lulvorth dedi. - Onlara dəli kimi baxmırlar. Bu həyatda Laura elə qəribə adam olub ki, heç kim onu anlamadı. Öləndən sonra hansı formada yaşayacağı barədə heç nə deyə bilmərəm.

- Necə bilirsən, - doğrudan da, o öləndən sonra hansısa heyvana dönə bilər? - Amanda soruşdu.

Amanda elə adamlardan idi ki, öz fikrini başqalarının nöqteyi-nəzərindən qəbul edirdi.

Elə bu vaxt Eqbert otağa daxil oldu. Onun üzünün ifadəsindən, görkəmindən ağır itki ilə üzləşdiyi hiss olunurdu.

- Mənim çil-çil cücələrimdən dördü öldürülüb, - o həyəcanla dedi. - Cümə günü şouda iştirak etməli olan cücələrim. Onlardan birini gücbəla ilə yetişdirdiyim qərənfil güllərinin yanına qədər sürüyüb aparıblar. Mənim ən yaxşı güllərim, ən yaxşı cücələrim məhv olub. Vəhşi heyvan qısa vaxt ərzində hər şeyi məhv etmək üçün bacardığını edib.

- Necə bilirsən, bunu tülkü edib? - Amanda soruşdu.

- Məncə, yox, safsarın işidir, - cənab Lulvorth dedi.

- Yox, - Eqbert dedi. - Hər yerdə pərdəli ayaq izləri vardı. Ayaq izləri düz bağın qırağındakı kiçik çaya qədər gedib çıxırdı. Məncə, susamurunun işidir.

Amanda tez başını qaldırıb oğrun-oğrun cənab Lulvortha baxdı.

Eqbert o qədər hirslənmişdi ki, heç səhər yeməyini də yemədi, ev quşlarını saxladığı yerin “müdafiəsini” gücləndirməyə getdi.

- Məncə, o ən azı dəfn mərasiminin qurtarmasına qədər gözləməli idi, - sarsılmış Amanda dedi.

- Bu, onun dəfn mərasimidir, - cənab Lulvorth dedi. - Öz dəfnini yaxşı təşkil etmək də etiket qaydasıdır.

Növbəti gün ailə üzvləri dəfn mrasimində iştirak edəndə çil-çil cücələrdən qalanları da öldürüldü. Cücəlıri öldürəndən sonra bütün gül ləkləri də məhv edilmiş, çiyələk ləklərinə də ziyan dəymişdi.

- Mümkün olan qədər tez it gətirməliyəm, - Eqbert dedi.

- Heç vəchlə buna razı olmaram! Belə şeyi heç ağlına da gətirmə! - Amanda bərkdən dedi. - Demək istəyirəm ki, evdə dəfn mərasimi olan müddətdə belə şey etmə!

- Buna ehtiyac var, - Eqbert dedi. - Əgər susamuru dadanıbsa buna son qoymaq lazımdır.

- Onsuz da, toyuq-cüənin hamsını öldürüb, yəqin bundan sonra susamuru başqa yerə gedər, - Amanda fikrini bildirdi.

- Adama elə gəlir ki, sən bu heyvanı müdafiə edirsən, - Eqbert dedi.

- Bağın aşağısındakı kiçik çayda də su azalıb, - Amanda dedi. - Yazıq heyvanın indi yaşamağa yeri olmadığı vaxtda ov etmək barədə düşünmək...

- Lənət şeytana! - Eqbert özündən çıxdı. - Mən ov etmək haqda düşünmürəm, mən bu heyvanı mümkün qədər tez öldürmək istəyirəm.

Növbəti bazar günü onlar kilsədə olanda susamuru evə girmiş, mətbəxdəki qızıl balığın yarısını yemiş, balığın pulcuqlarını Eqbertin otağındakı xalçaya dağıtmışdı. Bu vaxt Amanda daha öz etirazını bürüzə verə bilmədi.

- Bundan sonra biz balığı yorğan altda gizləyib, ayaqlarımız arasına qoyub yeməliyik, - Eqbert qeyzlə dedi.

O biri gün Amanda bütün günü çayın kənarında tənha dolaşıb it kimi səslər çıxardı. Onun “performansını” görənlər düşündülər ki, yəqin o kənddə keçiriləcək əyləncə proqramında çıxış üçün məşq edir.

Amandaya son xəbəri onun dostu və qonşusu Aurora Burret gətirdi.

- Təəssüf ki, sən bu gün evdən çölə çıxmadın. Maraqlı bir gün keçirdik. Bağın aşağısındakı kiçik çayın qırağına getmişdik, susamurunu gördük.

- Öldürdünüz? - Amanda soruşdu.

- Əlbəttə! Dişi susamuru idi. Ərin onun quyruğundan tutmağa çalışanda onu dişlədi. Yazıq heyvan! Ona çox yazığım gəldi! Kaş görəydin öldürülən vaxt onun gözləri insan gözlərinə necə də oxşayırdı! Bəlkə də mənə dəli deyərsən, heç bilirsən, onun gözləri mənə kimi xatırlatdı? Əzizim, de görüm, sənə nə oldu? Mən nə dedim axı!

Amanda zehni və fiziki yorğunluqdan bir müddət müalicə olunub sağalandan sonra Eqbet onu Nil vadisinə apardı. Yaşayış yerinin dəyişməsi, gözəl mənzərələr onun sağlamlığına çox yaxşı təsir etdi. Amandanın vəziyyəti normal hala düşdü. Onun normal halı bir gün Qahirdəki oteldə ərinin qışqırığını eşitdiyi günədək davam etdi.

- Nə olub? Nə baş verib? - Amanda təəccüblə ərindən soruşdu.

- Balaca vəhşi mənim bütün təmiz köynəklərimi hamama tullayıb, - Gözlə, səni tutacam, balaca...

- Hansı vəhşi? - gülməyini güclə boğan Amanda soruşdu.

Eqbert o qədər hirsli idi ki, o fikrini güclə ifadə etdi:

- Hansı vəhşi? Balaca, qəhvəyi rəngli çılpaq Nubiyalı oğlan, - Eqbert kəkələyə-kəkələyə dedi.

Və indi Amanda, həqiqətən də, ciddi xəstə idi.

**İngilis dilindən tərcümə edən:**
**Sevil Gültən**